Deloitte.

MAKING AN IMPACT THAT MATTERS since 1845





# Aylıq xəbərlərin icmalı
# Oktyabr 2022

## Mündəricat

Azərbaycan ........................................ 2
Oğurluq troyanlarının Azərbaycandakı fəaliyyəti haqda məlumat verilib ........................................ 2
Oktyabr “Kibertəhlükəsizlik üzrə maarifləndirmə ayı” kimi qeyd olunur ........................................ 2
Dövlət qurumlarının “Hökumət buludu”na keçidi ........................................ 3
Vahid Elektron Xidmətlər Portalında yenilik ........................................ 3
Qazaxıstan ........................................ 3
“Məclis” rəqəmsal hüquqla bağlı layihə təqdim edib ........................................ 3
Qazaxıstan elektron hökumətin inkişafına görə dünyada 28-ci yerdədir ........................................ 3
KazakhTelecom və AzerTelecom TransXəzər layihəsi üzrə əməkdaşlıq edəcək ........................................ 4
Mühəndislik şəbəkələrinin rəqəmsallaşdırılmasının 65% tamamlanıb ........................................ 4
Deputat Qazaxıstana tez-tez baş verən kiberhücumlara görə İT sahəsində xərclərin və dövlət nəzarətinin artırılmasını təklif edir ........................................ 4
Fırıldaqçılar YouTube-un Qazaxıstan seqmentinə hücum edirlər ........................................ 5

**Hökumətdə texnoloji inkişafa yeni yanaşmalar nəzərdən keçirildi....................................... 5**
Qırğızıstan ........................................................................................................................ 5
**Astanada keçirilən Mərkəzi Asiya Ticarət Forumunda gömrük xidmətlərinin rəqəmsallaşdırılması müzakirə olunub.................................................................................... 5**
Özbəkistan ........................................................................................................................ 6
**Özbəkistanda gənclər pulsuz onlayn təhsil almaq imkanı əldə edirlər ................................. 6**
İKT Həftəsi Özbəkistan – 2022: İnformasiya və Kommunikasiya Texnologiyaları Həftəsi ....... 6

# Azərbaycan

## Oğurluq troyanlarının Azərbaycandakı fəaliyyəti haqda məlumat verilib

2022-ci ildə Azərbaycanda oğurluq troyanlarından (stealer) istifadə etməklə həyata keçirilən 23000-dən çox hücum qeydə alınıb. Bunlar müxtəlif xidmətlərdəki hesablardan loqin və şifrələri oğurlayan zərərli proqramlardır.

Bildirilir ki, brauzerlərdən və masaüstü messencerlərdən şifrə və hesab məlumatlarını oğurlamaq üçün ən çox yayılmış troyanlardan biri "RedLine"dır. O, "Telegram" hesabından və bir sıra VPN proqramlarından, "Discord" tokenlərindən, kripto pul kisələrindən hesab məlumatlarını, həmçinin brauzerlərdə saxlanılan şifrə və kukiləri oğurlaya bilir.

Mənbə: xeberler.az, 7 Oktyabr, 2022

Back to top

## Oktyabr "Kibertəhlükəsizlik üzrə maarifləndirmə ayı" kimi qeyd olunur

Hər il oktyabr ayı dünyanın bir çox ölkəsində "Kibertəhlükəsizlik üzrə maarifləndirmə ayı" kimi qeyd olunur. Bu çərçivədə cəmiyyətdə kibertəhlükəsizlik sahəsində məlumatlılığın artırılması, vətəndaşlar və şirkətlər arasında kibergigiyena qaydalarının təşviq edilməsi məqsədilə müxtəlif tədbirlər həyata keçirilir.

Layihə çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti də "Kibertəhlükənin fərqindəyəm" şüarı ilə silsilə maarifləndirmə tədbirlərinin təşkilini nəzərdə tutur.

Mənbə: xeberler.az, 5 Oktyabr, 2022

Back to top

## Dövlət qurumlarının “Hökumət buludu”na keçidi

“Hökumət buludu”nun (G-cloud) yaradılması və “bulud” xidmətlərinin göstərilməsi sahəsində həyata keçirilən “Hökumət buludu”na Keçid Planında nəzərdə tutulan fəaliyyətin reallaşdırılması üçün dövlət qurumları ilə qarşılıqlı işlər davam etdirilir.

Keçid Planına əsasən, dövlət qurumlarının informasiya sistemlərinin Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “AzInTelecom” MMC-yə məxsus Data Mərkəzinə miqrasiyası həyata keçirilir.

Mənbə: xeberler.az, 26 Oktyabr, 2022

Back to top

## Vahid Elektron Xidmətlər Portalında yenilik

Vahid Elektron Xidmətlər Portalında növbəti xidmət istifadəyə verilib. Bu, Dövlət Radiotezliklər İdarəsinin (DRİ) təqdim etdiyi “Radioelektron vasitələrinin qeydiyyatı və icazə vərəqəsinin verilməsi” xidmətidir. Hazırda xidmət tam rəqəmsallaşdırılıb. İstifadəçilər radioelektron vasitələrin qeydiyyatı və icazə vərəqəsinin verilməsi ilə bağlı xidmətdən istifadə üçün tələb olunan məlumatları elektron formada doldurmaqla portal üzərindən DRİ-yə müraciət edə biləcəklər.

Mənbə: xeberler.az, 26 Oktyabr, 2022

Back to top

# Qazaxıstan

## “Məclis” rəqəmsal hüquqla bağlı layihə təqdim edib

“Tech Garden” brendi altında fəaliyyət göstərən “İnnovativ Texnologiyalar Parkı” Avtonom Klaster Fondu pilot texnologiya auditinin aparılması üçün üçtərəfli saziş imzalayıb. Müqavilə Qazaxıstanın Rəqəmsal İnkişaf, İnnovasiya və Aerokosmik Sənaye Nazirliyinin dəstəyi ilə “TK Metacon” MMC istehsal şirkəti və inteqrator “Meta robotics” MMC ilə Azərbaycanın sənaye sektoru müəssisələrində sənaye robotlarının təşviqi məqsədilə imzalanıb.

Mənbə: profit.kz, 03 Oktyabr, 2022

Back to top

## Qazaxıstan elektron hökumətin inkişafına görə dünyada 28-ci yerdədir

Qazaxıstan BMT-nin Qlobal Elektron Hökumətin İnkişafı İndeksində 29-cu yerdən bir pillə irəliləyərək 28-ci yerdə qərarlaşıb. Rəqəmsal inkişaf, innovasiyalar və aerokosmik sənaye nazirinin sözlərinə görə, yerli elektron hökumət infrastrukturunun ağır yüklənməsinə, koronavirus pandemiyası və digər nüanslara baxmayaraq, Qazaxıstan bir neçə il ərzində sistematik olaraq öz göstəricilərini yaxşılaşdırıb. Rəqəmsal hökumətin inkişafı dövlət başçısının xüsusi nəzarətindədir və o qeyd edir ki, məhz rəqəmsal transformasiya ölkənin rəqabət qabiliyyətini müəyyən edir.

Mənbə: profit.kz, 04 Oktyabr, 2022

Back to top

## KazakhTelecom və AzerTelecom TransXəzər layihəsi üzrə əməkdaşlıq edəcək

“Digital Bridge2022” illik beynəlxalq texnoloji forumu çərçivəsində “KazakhTelecom” və “AzerTelecom” Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsi üzrə strateji tərəfdaşlıq memorandumu imzalayıb. Tərəflər əmindirlər ki, sənəd hər iki ölkədə rəqəmsal infrastrukturun inkişafı sahəsində gələcək əməkdaşlığa təkan verəcək və hər iki ölkədə əlçatanlıq və şəbəkələrin tutumunun artırılması baxımından yeni bazar imkanlarının yaradılmasına töhfə verəcək..

Mənbə: profit.kz, 04 Oktyabr, 2022

Back to top

## Mühəndislik şəbəkələrinin rəqəmsallaşdırılmasının 65% tamamlanıb

Qazaxıstan Respublikası Baş nazirinin sədrliyi ilə keçirilən hökumətin iclasında dövlət şəhərsalma kadastrı sisteminin tətbiqi məsələsinə baxılıb. MİİI-nin rəhbəri Kairbek Uskenbayevin verdiyi məlumata görə, dövlət şəhərsalma kadastrının avtomatlaşdırılmış sistemi yaşayış məntəqələrinin cari və planlaşdırılan inkişafı barədə məlumatların verilməsi üçün əsas vasitələrdən biri kimi çıxış edir. 2020-ci ilin sonunda rəqəmsal məlumatların toplanması, vizuallaşdırılması və yenilənməsi üçün şəhər kadastrının infrastruktur məlumatlarının açıq geoportalı istifadəyə verilib. Bu müddət ərzində infrastruktur məlumatlarının 65%-i toplanıb. Mühəndislik şəbəkələrinin tam rəqəmsallaşdırılması üçün 2024-cü ilə qədər şəbəkələrin 35%-nin rəqəmsallaşdırılmalıdır.

Mənbə: kazpress.kz, 04 Oktyabr, 2022

Back to top

## Deputat Qazaxıstana tez-tez baş verən kiberhücumlara görə İT sahəsində xərclərin və dövlət nəzarətinin artırılmasını təklif edir

“Məclis”-in “Amanat” partiyasının fraksiyasından olan deputatı baş nazirə müraciət edərək, informasiya texnologiyaları sahəsində son vaxtlar tez-tez rast gəlinən çoxsaylı problemlərin həlli ilə bağlı tövsiyələr verib. Belə ki, deputat bu problemlərin həlli üçün bir neçə tədbir təklif edir. Təklif olunan həllər siyahısına informasiya təhlükəsizliyi sahəsinin rəqəmsallaşdırılması və inkişafına ayrılan xərclərin ümumi strukturunda informasiya təhlükəsizliyinə ayrılan xərclərin xüsusi çəkisinin artırılması və 10%-ə çatdırılması, informasiya təhlükəsizliyi üzrə ixtisasların həcminin və sayının artırılması, informasiya təhlükəsizliyi sahəsində dövlət nəzarəti institutunun gücləndirilməsi aiddir.

Mənbə: profit.kz, 06 Oktyabr, 2022

Back to top

## Fırıldaqçılar YouTube-un Qazaxıstan seqmentinə hücum edirlər

Milli Kompüter İnsidentlərinə Müdaxilə Xidməti KZ-CERT "Dövlət Texniki Xidməti" "YouTube" videohostinq saytında tanınmış şirkətlər, o cümlədən "Nationanl Company KazMunayGas" səhmdar cəmiyyəti adından fişinq keçidləri olan videoçarxların yayılması barədə məlumat verib.

Mənbə: cert.gov.kz, 11 Oktyabr, 2022

Back to top

## Hökumətdə texnoloji inkişafa yeni yanaşmalar nəzərdən keçirildi

Ümumdünya Əqli Mülkiyyət Təşkilatının illik qlobal reytinqinin təhlilinin nəticələrinə əsasən, Qazaxıstanın innovasiya ekosisteminin səmərəliliyini artırmaq üçün təkliflər hazırlanıb. Beləliklə, qabaqcıl ölkələrin və təşkilatların təcrübəsinə əsaslanan yeni yanaşma çərçivəsində səylərin konkret istiqamətlərə yönəldilməsi təklif edilir: vətəndaşların sağlamlığının və həyat keyfiyyətinin yaxşılaşdırılması məqsədilə səhiyyə sisteminin təkmilləşdirilməsi üçün yeni texnologiyaların tətbiqi – MedTech; ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları istehsalının inkişafı - AgriTech; "yaşıl" texnologiyaların inkişafı, enerji səmərəliliyi və enerjiyə qənaət - GreenTech. Bu yanaşma dar məqsədli innovasiyaların səmərəliliyini artıracaq və bütövlükdə iqtisadiyyatın inkişafına müsbət multiplikativ təsir göstərəcək.

Mənbə: profit.kz, 28 Oktyabr, 2022

Back to top

# Qırğızıstan

## Astanada keçirilən Mərkəzi Asiya Ticarət Forumunda gömrük xidmətlərinin rəqəmsallaşdırılması müzakirə olunub

Qazaxıstan 12-ci Mərkəzi Asiya Ticarət Forumuna ev sahibliyi edib. Astanada keçirilən forumun mövzusu gömrük xidmətlərinin rəqəmsallaşdırılması olub. Forum çərçivəsində Mərkəzi Asiyanın gömrük administrasiyalarının nümayəndələri rəqəmsal həllərin və xidmətlərin inkişafı, böyük məlumatların, telematika və bulud xidmətlərinin istifadəsi kimi qabaqcıl texnologiyaların tətbiqi üzrə cari işləri müzakirə ediblər. Forumda İqtisadiyyat və Kommersiya Nazirliyinin, Qırğızıstan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Gömrük Xidmətinin nümayəndələri, eləcə də işgüzar dairələrin nümayəndələri iştirak ediblər. Onlar ölkənin rəqəmsallaşma səylərini və sənədsiz ticarətə keçidlə bağlı dövlət siyasətini təqdim ediblər.

Mənbə: mineconom.gov.kg, 12 Oktyabr, 2022

Back to top

# Özbəkistan

## Özbəkistanda gənclər pulsuz onlayn təhsil almaq imkanı əldə edirlər

Oktyabrın 25-də İT-Təhsil forumu çərçivəsində Özbəkistan Respublikasının İnformasiya Texnologiyalarının və Kommunikasiyalarının İnkişafı Nazirliyi, “IT-Park” və “Coursera” arasında görüş keçirilib. Görüşün yekunu olaraq, memorandumun imzalanmasına dair razılıq əldə olunub, ona əsasən, 2023-cü ildən etibarən 1,2 milyon gənc “Coursera” platformasında İT-nin 3 əsas istiqaməti (frontend, Python kursu, İT-İngilis dili) üzrə onlayn kurslar keçə və müvafiq sertifikatlar əldə edə biləcəklər.

Mənbə: uzdaily.uz, 25 Oktyabr, 2022

Back to top

## İKT Həftəsi Özbəkistan – 2022: İnformasiya və Kommunikasiya Texnologiyaları Həftəsi

24-27 oktyabr 2022-ci il tarixlərində Səmərqənd şəhərində keçirilən “ICTWeek Uzbekistan” informasiya və kommunikasiya texnologiyaları həftəsi informasiya-kommunikasiya texnologiyaları, informasiya təhlükəsizliyi və proqram təminatı bazarının inkişafını, Özbəkistanın transformasiyasını daha da stimullaşdırmaq məqsədilə təşkil olunub. Özbəkistanın regional İT qovşağına çevrilməsi, respublikada rəqəmsal iqtisadiyyatın və Elektron Hökumət sisteminin tətbiqi nəticəsində əldə olunan nailiyyətlərin, imkanların və üstünlüklərin nümayişi, eləcə də bu sahədə praktiki nəticələrin və inkişaf tendensiyalarının müzakirəsi həftənin mühüm mövzularından idi.

Mənbə: uzdaily.uz, 25 Oktyabr, 2022

Back to top

MAKING AN IMPACT THAT MATTERS Since 1845

deloitte.az

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL (“Deloitte Qlobal”) və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Deloitte qlobal səviyyədə audit və əminlik, konsaltinq, maliyyə, risk, vergi üzrə məsləhət xidməti və digər əlaqədar xidmətlər göstərən aparıcı markalardandır. 150-dən çox ölkədə və ərazidə xidmətlər göstərən üzv şirkətlər şəbəkəsi Fortune Global 500® üzrə beş şirkətdən dördünə öz xidmətlərini göstərir. Deloitte-un təxminən 330,000 peşəkar mütəxəssisinin təklif etdiyi fərq yaradan həllər haqqında ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

Bu məlumatda yalnız ümumi informasiya əks olunur və Deloitte Touche Tohmatsu Limited şirkətlərindən, onun üzv şirkətlərindən və ya əlaqədar müəssisələrdən (birlikdə “Deloitte Şəbəkəsi”) hər hansı biri bu məlumat vasitəsilə peşəkar məsləhətləşmə və ya xidmətlər təmin etmir. Maliyyə fəaliyyətinizə

və ya müəssisənizə təsir göstərə biləcək hər hansı qərarlar qəbul etməzdən və ya tədbirlər görməzdən əvvəl peşəkar mütəxəssis ilə məsləhətləşmək daha məqsədəuyğundur. Deloitte Şəbəkəsinə daxil olan heç bir müəssisə bu məlumata istinad edən hər hansı şəxsin məruz qaldığı zərərə görə məsuliyyət daşımır.

Nobel pr. 25E, Bakı Ağ Şəhər Ofis Binası
Bakı, AZ1025, Azərbaycan Respublikası

© 2022 Deloitte & Touche MMAC. Bütün hüquqlar qorunur.